Tarix və Antropologiya

UOT: 94(479.24)
DOI:10.30546/3006-0346.2024.5.83.025

# AZƏRBAYCAN – ERMƏNİSTAN SÜLH DANIŞIQLARINDA QƏRBİ AZƏRBAYCAN MƏSƏLƏSİ

**ARZU XƏLİLZADƏ**
*Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru*
*E-mail: arzuxelilzade89@gmail.com*

Azərbaycanla Ermənistan arasında sülh danışıqlarında Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıtması məsələsi əsas mövzulardan biridir. Qərbi azərbaycanlıların öz tarixi torpaqlarından qovulması və onların etnik təmizləməyə məruz qalması XIX əsrin əvvəllərindən başlamış və bir neçə mərhələdən keçmişdir. XIX əsrin əvvəllərindən başlayaraq Rusiya imperiyasının İrəvan və Naxçıvan xanlıqlarının inzibati ərazisində yaratdığı qondarma müvəqqəti "Erməni vilayəti" kiçik bir ərazidə idarəetmə üsulu olmuş, sonralar rus imperiyasının köməyi ilə dünyanın ayrı-ayrı dövlətlərindən İrəvan xanlığının ərazisinə mərhələ-mərhələ köçürülən ermənilərin hesabına vilayətin erməni əhalisinin sayı getdikcə artmağa və soxulduqları ərazi genişləndirilməyə başlanmışdı. XIX əsrin ikinci yarısında Azərbaycanın 20 xanlıqlarından biri olan İrəvan xanlığında əhalinin 76%-i Azərbaycan türkləri, 24%-i isə ermənilər və digər millətlər təşkil edirdi. Sonrakı dövrlərdə Azərbaycan türklərinin əzəli və əbədi torpaqlarında möhkəmlənən ermənilər öz himayədarlarının köməyi ilə yerli əhalini müxtəlif zorakı üsullarla sıxışdıraraq dədə-baba yurdlarından qovub çıxarmış və İrəvan xanlığının ərazisində qondarma "Ermənistan dövləti" yaratmışdılar [7]. Qeyd edək ki, İrəvan xanlığı Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsi və Araz çayından cənub – qərbə doğru uzanan ərazini əhatə edirdi. İrəvan şəhəri əhalisinin yalnız dörddə biri ermənilərdən ibarət idi. Xanlığın ərazisində yerləşən erməni dini mərkəzi "Üçmüədzin" ("Eçmiədzin"), "Üçkilsə"nin başçısı katolikos, İrəvan xanı tərəfindən təyin olunurdu. İrəvan xanlığını Azərbaycanın dövlət idarəçiliyi tarixində mühüm rol oynamış məşhur türk sülaləsi Qacarlardan olan xanlar idarə etmişlər [5].

İrəvan torpağı Azərbaycan xalqının ictimai-siyasi həyatında mühüm rol oynamış görkəmli şəxsiyyətlər yetişdirmişdir. Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Əziz Əliyevin həyat yolu Çuxur Səd – İrəvan xanlığının Abaran mahalındakı Hamamlı kəndindən başlamışdır. Əziz Əliyev 1897-ci il yanvar ayının 1-də qədim türk yurdu olan Hamamlıda anadan olmuşdur. Atası Məmmədkərim Kərbəlayi Qurbanəli oğlu İrəvan xanlığının sayılıb-seçilən, dövrünün ziyalı insanlarından olmuşdur. İrəvan xanı Əli xan Məmmədkərim Kərbəlayinin qızı ilə ailə qurmuşdu. Əziz Əliyev 1917-ci ildə İrəvan Kişi Gimnaziyasını əla qiymətlərlə bitirərək, Peterburq Hərbi Tibb Akademiyasında təhsil almaq üçün getmişdir. Əziz Əliyev 1918-ci il mayın sonlarında İrəvana anasının və qardaşının yanına gələn zaman azğınlaşmış daşnaklara görə Peterburqa qayıda bilmədi. Onlar əvvəlcə Şərurda, sonra Naxçıvanın Şaxtaxtı kəndində məskunlaşmış, Əziz Əliyev orada həkim köməkçisi işləmişdir. O, burada Şaxtaxtı kəndində irəvanlı tacir Hacı Cabbar Abbasovun yeganə qızı Leyli xanımla ailə qurmuşdur. Bu evlilikdən 1921-ci ilin oktyabr ayında onun oğlu Tamerlan və qızı Zərifə xanım dünyaya gəlmişdir [9].

XX əsr boyu Qərbi Azərbaycanda – indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı deportasiya siyasəti həyata keçirilmişdir. Deportasiya illərində azərbaycanlılara qarşı erməni separatçılığı, vandalizmi baş vermiş və müxtəlif terror aktları həyata keçirilmişdir. Nəticədə minlərlə Azərbaycan türkü öldürülmüş, var-dövləti talan edilmiş, yaşayış məskənləri dağıdılmış, tarixi mədəniyyət abidələri yer üzündən silinmiş və saxtalaşdırılmışdır.

1920-ci ilin sonlarında Ermənistan ərazisi Azərbaycan və Gürcüstan dövlətinin əraziləri hesabına 20 min kv.km-ə çatdırılmışdı. Ermənistanda sovet hakimiyyətinin qurulması zamanı İrəvan şəhərində təqribən 2 minə yaxın azərbaycanlı qalmış, yarım milyona yaxın azərbaycanlı məhv edilərək evlərindən didərgin salınmışdı [10, s.8].

1988-1990-cı illərdə 250 mindən artıq Azərbaycan türkü öz tarixi Qərbi Azərbaycan torpaqlarından qovulmuş, əhaliyə 60 milyarddan çox ABŞ dolları həcmində ziyan vurulmuşdur. İrəvan xanlığının ərazisi ermənilər tərəfindən zəbt edilib və o torpaqlarda bir nəfər də olsun Azərbaycan türkü yaşamır [7].

Azərbaycanlılara qarşı tarixən aparılan etnik təmizləmə siyasəti bir çox hallarda dövlət orqanları tərəfindən zorakılıq, soyqırımı, kütləvi qırğınlar, insanlığa qarşı cinayətlər və insan hüquqlarının ko-

bud şəkildə pozulması ilə həyata keçirilmişdir. XX əsr boyu bu proses sistemli şəkildə baş vermişdir. Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasəti 1905-1906, 1918-1921, 1948-1953 və nəhayət, 1987-1991-ci illərdə xüsusilə şiddətli və qəddar olmuşdur. Bu siyasət yalnız Qərbi azərbaycanlı əhaliyə qarşı deyil, eyni zamanda Ermənistanda Azərbaycanın qədim tarixi-mədəni irsinə qarşı törədilmiş, o cümlədən məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılmış, toponimlər dəyişdirilmiş, azərbaycanlılara münasibətdə irqi ayrı-seçkilik həyata keçirilmişdir [6].

Qərbi azərbaycanlıların öz tarixi torpaqlarından deportasiyası və qovulması ilə bağlı Prezident İlham Əliyev bildirmişdir: "...1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalmışdır. Bu, sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törədilmiş növbəti cinayəti idi. Bu, eyni zamanda, böyük ədalətsizlik idi, vicdansızlıq idi. Çünki İkinci Dünya Müharibəsi cəmi 3 il idi ki, başa çatmışdır. Azərbaycan xalqı böyük fədakarlıq göstərmişdir. Təkcə sovet Azərbaycanından olan insanların 300 mini həlak olmuşdur. O vaxt sovet Ermənistanında yaşamış on minlərlə azərbaycanlı da həlak olmuşdur... 1980-ci illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi..... Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi və biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik - 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar. Mən ovaxtkı Ermənistanı nəzərdə tuturam, Ermənistan Respublikasını nəzərdə tuturam, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi" [8].

Prezident İlham Əliyev Qərbi azərbaycanlıların qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplum olduqlarını, onların hüquqlarının bərpa edilməsinin vacibliyini və öz doğma torpaqlarına qayıtmalı olduqlarını vurğuladı. Azərbaycan bu prosesin sülh yolu ilə baş verməsinin və Qərbi azərbaycanlıların hüquqlarının sülh yolu ilə təmin edilməsinin tərəfdarıdır. Bu hüquq bütün beynəlxalq konvensiyalar tərəfindən tanınır [8].

Azərbaycan BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geri qayıtmaq hüququna əsaslanaraq, Qərbi azərbaycanlıların Ermənistandakı – Qərbi Azərbaycandakı öz ata-baba yurduna təhlükəsiz və ləyaqətli şəkildə qayıtmağına və bundan sonra onların fərdi və kollektiv hüquqlarının bərpa olunmasına səy göstərir [6].

İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi qələbəsindən sonra Cənubi Qafqazda sülhə nail olmaq üçün Ermənistanla sülh danışıqlarına başlanılması zəruri idi. Ermənistanla sülh danışıqları uzun prosesdən keçsə də, tərəflər arasında ümumi mövqelər müəyyənləşsə də, qarşılıqlı anlaşma nöqtələri tapılsa da, bu prosesə mane olan bir sıra amillər mövcuddur.

Azərbaycan – Ermənistan sülh danışıqlarına mane olan əsas faktorlardan biri Ermənistan Konstitusiyasında dəyişikliklərin aparılması zərurəti və Ermənistan hakimiyyətinin bu istiqamətdə müvafiq addımlar atmaması ilə bağlıdır.

Prezident İlham Əliyev TÜRKPA-ya üzv ölkələrin parlament sədrləri ilə keçirilən görüşdə bildirdi ki, Ermənistan konstitusiyası dəyişmədiyi təqdirdə tərəflər arasında sülh sazişinin bağlanması mümkün deyil. Ermənistan Baş naziri N. Paşinyan konstitusiyanın dəyişilməsinə müsbət mövqeyini ifadə etsə də, bu istiqamətdə konkret əməli addımlar atılmamışdır.

Azərbaycanın mövqeyi bundan ibarətdir ki, Ermənistan Konstitusiyasının preambulasında göstərilən Müstəqillik Bəyannaməsində həm Türkiyəyə, həm də Azərbaycana qarşı ərazi iddiaları var. Bu bəyannamədə "1915-ci ildə Osmanlı Türkiyəsində və Qərbi Ermənistanda gerçəkləşən soyqırımın tanınması"ı məsələsi dəstəklənir. Burada həm qondarma erməni soyqırımı barədə iddialar, həm də Türkiyənin "Qərbi Ermənistan" adlandırılması Azərbaycanın narazılığına səbəb olmuşdur. Belə ki, ermənilər "Qərbi Ermənistan" dedikdə Türkiyə Cümhuriyyətinin 6 şərq vilayətini – Ərzurum, Van, Bitlis, Diyarbakır, Harput və Sivası nəzərdə tutur [2].

Ermənistan Konstitusiyasının dəyişilməcəyi təqdirdə iki tərəf arasında imzalanacaq sülhün gələcəkdə sabit qalacağı şübhə doğurur.

Qeyd edək ki, Azərbaycanla Ermənistan arasında sülh danışıqları müəyyən prinsiplərə əsaslanır. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasını nəzərdə tutan sülh sazişinin detalları tam məlum olmasa da, danışıqların əsaslandığı

prinsiplər məlumdur. Belə ki, 2022-ci ilin mart ayında Azərbaycan sülh danışıqları üçün 5 baza prinsipini əks etdirən sənədi ictimailəşdirdi. Bu prinsiplərə əsasən, tərəflər beynəlxalq sərhədlərinin toxunulmazlığı və ərazi iddialarının qaldırılmayacağını təsdiqləməli idilər. Dövlətlərarası münasibətlərdə hədə və gücdən istifadə etməmək prinsipi göstərilirdi.

Tərəflər arasında mühüm bir prinsip kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası və demarkasiyasıdır [1]. Ermənistan bu prinsipləri qəbul etmiş, sülh sazişi layihəsi ilə bağlı təkliflərin mübadiləsi və danışıqlar prosesi davam etmişdir.

İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra Qərbi azərbaycanlıların hüquqlarının bərpası ilə məşğul olan təşkilat Qərbi Azərbaycan İcması Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geriyə qayıtmasının təmin edilməsi barədə Qayıdış Konsepsiya"nı hazırladı. Bu sənəd Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının və Baş Assambleyasının rəsmi sənədi kimi dərc olundu. Konsepsiyaya görə İcma iki əsr ərzində Qərbi azərbaycanlılara qarşı törədilmiş ədalətsizliyi qəbul etmir və bu ədalətsizliyin nəticələrini rədd edirdi. İcma Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququna əsaslanmaqla indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına qayıtmalarına şərait yaradılmasını, onların fərdi və kollektiv hüquqlarının təmin edilməsini özünün əsas hədəfi kimi bəyan edirdi [4]. Sənəddə həmçinin Birləşmiş Millətlər Təşkilatından və onun ixtisaslaşmış təşkilatlarından, xüsusilə də YUNESKO-dan, Qərbi azərbaycanıların öz ata-baba yurdlarına geri qayıtması istiqamətində hüquqlarının təmin olunmasına kömək etmələri və repatriasiya prosesinə töhfə vermək məqsədilə Ermənistana missiyalar göndərilməsinin vacibliyi vurğulanırdı.

İcmanın insan hüquqlarına əsaslanan gündəliyinin əhəmiyyətli hissəsini eyni zamanda BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, xüsusi prosedur mandat sahibləri ilə dialoq, BMT-nin İnsan Hüquqları Şurası və digər müqavilə təşkilatları ilə qarşılıqlı əlaqə təşkil edir. İcma, həmçinin "Human Rights Watch" və "Amnesty İnternational" kimi insan hüquqları sahəsində aparıcı qeyri-hökumət təşkilatları ilə dialoqa başladı.

Ermənistanla dialoq Qərbi azərbaycanlıların qayıdışı məsələsinin sülh yolu ilə həll etmək səylərinin əsas aspektini təşkil edir. Bu yanaşmayla və beynəlxalq hüquqa əsaslanaraq, xüsusilə dövlətlərin ərazi bütövlüyünə hörmət prinsipinə birmənalı sadiqlik göstərməklə İcma Ermənistan hökumətinə dialoq təklifi ilə müraciət etsə də, bu müraciətlər cavabsız qalmışdır.

Azərbaycanlıların geri qayıtmaq hüququnun bəyan olunması iki ölkə arasında imzalanacaq sülh sazişində regionda sülhün davamlı olması baxımından əhəmiyyətlidir. Azərbaycan hökuməti Ermənistanla sülh danışıqlarında bu məsələni qaldırması barədə bəyanat vermişdir [6].

Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı dediyi "XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin" – fikirləri Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıtmasının konseptual əsasını təşkil edir [3].

Bu konsepsiyadan irəli gələrək Azərbaycan Ermənistanla sülh danışıqlarına Qərbi Azərbaycan məsələsinin daxil edilməsi istiqamətində praktik addımlar atmışdır. Azərbaycan 2023-cü ilin dekabr ayında azərbaycanlıların öz doğma yurdlarına qayıtması tələbini səsləndirmiş və 2024-cü ildə sülh danışıqları ilə bağlı Ermənistana göndərilən 10-cu paketində yazılı şəkildə irəli sürmüşdür. Burada qeyd olunmuşdur ki, Qərbi Azərbaycan məsələsi – azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtması rəsmi Bakının əsas prioritetlərindəndir. Ermənistan mediası isə Azərbaycanın beynəlxalq hüquqa əsaslanan bu tələbini "Bakının Qərbi Azərbaycan tələbi" kimi təqdim edir, qarşı tərəf bu məsələni arxa plana keçirməyə, sülh danışıqlarında müzakirə edildiyini gizlətməyə çalışır.

Erməni politoloqlar Qaqik Hambaryan, Stepan Danielyan, Beniamin Matevosyanın iddialarına əsasən Azərbaycan 1918-20-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin varisidir və həmin dövrün ərazilərini bərpa etmək niyyətindədir: "Bu halda Ermənistanın ərazisi 10 min kvadratkilometr olacaq, Qərbi Azərbaycan adlanan digər ərazilər Azərbaycanın nəzarətinə keçəcək. Paşinyan bu planı icra edir. Nikolun "əsl Ermənistanı" əslində Qərbi

Azərbaycandır. Ermənistanın Azərbaycana qaytaracağı növbəti ərazi Sünik, yəni Zəngəzur olacaq. Bu reallıqdır. Nikol Paşinyan hazırda erməni cəmiyyətini buna hazırlayır" [3].

**YEKUN**

İkinci Qarabağ Müharibəsində Azərbaycanın tarixi zəfərindən sonra qarşıda duran əsas vəzifələrdən biri Qərbi Azərbaycandan – indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının bərpası, onların beynəlxalq hüquqa əsaslanaraq, ləyaqətli şəkildə öz doğma yurdlarına qaytarılmasıdır. Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıtması məsələsi Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının mövzularından biridir. Bu istiqamətdə atılan praktik addımlar aşağıdakı istiqamətlərdə genişləndirilməlidir:

- İrəvan, Qərbi Azərbaycanla bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq;
- Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıtması istiqamətində təbliğat tədbirlərini gücləndirmək;
- Qədim İrəvanın tarixi, coğrafiyası, maddi-mədəniyyət nümunələri və görkəmli şəxsiyyətləri ilə bağlı tədqiqatları genişləndirmək;
- Müasir Ermənistan ərazisində İrəvanın tarixi mərkəzinin məhz Azərbaycan tarixi ilə bağlı olması, şəhərin bunu sübut edən qədim maddi-mədəniyyət abidələrinin ermənilər tərəfindən məhv edilməsi haqqında həqiqətləri beynəlxalq müstəvidə çatdırmaq;
- Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıtması üçün informasiya, təşkilatı işləri gücləndirmək, yerli və beynəlxalq konfranslar təşkil etmək.

**Açar sözlər:** *Qərbi Azərbaycan, İrəvan, Ermənistan, sülh danışıqları, tarixi torpaqlar, qayıdış konsepsiyası.*

***ƏDƏBİYYAT SİYAHISI:***

*1. Azərbaycan – Ermənistan: sülh danışıqlarında nə müzakirə olundu? [Elektron resurs] / – URL: https://www.bbc.com/azeri/articles/c0vxpgy3jz5o*

*2. Ermənistanla Azərbaycan arasında sülh üçün ən böyük maneə: [Elektron resurs] / – URL: https://modern.az/analitika/473893/ermenistanla-azerbaycan-arasinda-sulh-uchun-en-byuk-manee/*

*3. Xronika: "Qərbi Azərbaycan məsələsi Ermənistanla sülh sazişi mətninə artıq daxil edilib": [Elektron resurs] / – URL: https://oxu.az/siyaset/xronika-qerbi-azerbaycan- meselesi-ermenistanla-sulh-sazisi-metnine-artiq-daxil-edilib*

*4. İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya – Qayıdış Konsepsiyası: [Elektron resurs] / – URL: https://westaz.org/az/details/ senedler/qayidis-konsepsiyasi/qayidis-konsepsiyasi*

*5. İrəvan xanlığının tarixi coğrafiyası: [Elektron resurs] / – URL: https://www.geostrategiya.az/news.php?id=152*

*6. İtaliya nəşri: Qərbi Azərbaycan məsələsi nədir? [Elektron resurs] / – URL: https://azertag.az/xeber/italiya_nesri_qerbi_azerbaycan_meselesi_nedir-2756992.*

*7. Qərbi Azərbaycan məsələsi ilə bağlı böyük proses başladıldı: [Elektron resurs] / – URL:https://musavat.com/news/qerbi-azerbaycan-meselesi-i-le-bagli-boyuk proses-basladildi_179483.html*

*8. Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə İlham Əliyevin nitqi: [Elektron resurs] / – URL: https://president.az/az/articles/view/58470*

*9. Quliyev M. Görkəmli dövlət xadimi Əziz Əliyevin nəsil şəcərəsi və onun Şərur mahalında yaşaması haqqında bir yarpaq xatirə // Elm. – 2008, 28 fevral. – s. 11.*

*10. Mustafa, N. İrəvan quberniyasında azərbaycanlıların soyqırımı (1918-1920) / N. Mustafa. – Bakı: AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu. Elm nəşriyyatı, – 2017. – 328 s.*

**АРЗУ ХАЛИЛЗАДЕ,**
***Доцент Бакинского государственного Университета, доктор философии по истории***
***E-mail: arzuxelilzade89@gmail.com***

**РЕЗЮМЕ**

**ВОПРОС О ЗАПАДНОМ АЗЕРБАЙДЖАНЕ НА АЗЕРБАЙДЖАНО-АРМЯНСКИХ МИРНЫХ ПЕРЕГОВОРАХ**

В статье изучен вопрос возвращения западных азербайджанцев на свои исторические земли на мирных переговорах между Азербайджаном и Арменией после Второй Карабахской войны, приведены исторические и правовые аргументы. Поэтому был сделан экскурс в историю Иревана, уделено внимание политике этнической чистки

и депортации, проводимой на землях Западного Азербайджана. Была проанализирована организационная работа, проводимая Азербайджанским государством в этом направлении, концепция возвращения в Западный Азербайджан, подчеркнута важность проведения пропаганды на международной арене.

**Ключевые слова:** *Западный Азербайджан, Иреван, Армения, мирные переговоры, исторические земли, концепция возвращения.*

**ARZU KHALILZADE,**
***Associate Professor of Baku State University,***
***Doctor of Philosophy in History***
***E-mail: arzuxelilzade89@gmail.com***

**SUMMARY**

**The issue of Western Azerbaijan at the Azerbaijani – Armenian peace negotiations**

The article examines the issue of the return of Western Azerbaijanis to their historical lands during the peace talks between Azerbaijan and Armenia after the Second Karabakh War, provides historical and legal arguments. Therefore, an excursion into the history of Irevan was made, and attention was paid to the policy of ethnic cleansing and deportation carried out in the lands of Western Azerbaijan. The organizational work carried out by the Azerbaijani state in this direction, the concept of returning to Western Azerbaijan were analyzed, and the importance of conducting propaganda in the international arena was emphasized.

**Keywords:** *Western Azerbaijan, Irevan, Armenia, peace negotiations, historical lands, the concept of return.*